**Energetika haqqında**

**Azərbaycan Respublikasının Qanunu**

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 13-cü və 20-ci bəndlərinə uyğun olaraq, energetika sahəsində fəaliyyətin hüquqi, iqtisadi, idarəetmə əsaslarını, habelə sağlam rəqabət mühitinin formalaşdırılması və inkişafı, regional əməkdaşlığın, özəl investisiyaların, davamlı iqtisadi inkişafın və enerji səmərəliliyinin təşviqi və dəstəklənməsi mexanizmlərini müəyyən edir və bu sahədə fəaliyyətin ümumi hüquqi əsaslarını yaradır.

## Fəsil 1. Ümumi müddəalar

### Maddə 1. Qanunun məqsədi və tətbiq sahəsi

1.1. Bu Qanunun məqsədini enerjidən təhlükəsiz və səmərəli istifadə edilməklə və ətraf mühitə vurulan zərəri minimuma endirməklə energetika sahəsində fəaliyyətin həyata keçirilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi, o cümlədən istehlakçıların etibarlı, davamlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsi üçün hüquqi əsasların yaradılması təşkil edir.

1.2. Bu Qanun Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən energetika subyektlərinə, energetika sahəsində dövlətin idarəetmə və nəzarət üzrə səlahiyyətlərini həyata keçirən dövlət orqanlarına (qurumlara) və tənzimləyiciyə, habelə enerji istehlakçılarına şamil olunur.

1.3. Bu Qanun Azərbaycan Respublikasının ayrı-ayrı qanunları ilə təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında sazişlərə və xam neftin və qazın ixrac boru kəmərləri vasitəsilə nəql edilməsinə dair sazişlərə və həmin sazişlər çərçivəsində bağlanılmış və Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş digər sənədlər üzrə münasibətlərə yalnız həmin sənədlərdə nəzərdə tutulan və həmin sənədlərə zidd olmayan hallarda şamil edilir.

1.4. Bu Qanun enerjinin avtomobil, dəmir yol, hava və su nəqliyyatı vasitələri ilə daşınmasına, həmçinin nüvə materiallarının idxalına, ixracına, istehsalına, saxlanılmasına və emalına şamil olunmur.

### Maddə 2. Əsas anlayışlar

2.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **çarpaz subsidiyalaşma** – bir fəaliyyət növündən əldə edilən gəlir hesabına digər fəaliyyət növünün subsidiyalaşdırılması;

2.1.2. **energetika obyekti** – enerjinin istehsalı, emalı, nəqli, ötürülməsi, paylanması və saxlanması üçün istifadə olunan avadanlıq, qurğular və onlara aid tikililər məcmusu;

2.1.3. **energetika sahəsi** – enerjinin kəşfiyyatı, işlənməsi, hasilatı, emalı, istehsalı, saxlanması, alqı-satqısı, idxalı, ixracı, nəqli, ötürülməsi, paylanması və istifadəsini ehtiva edən Azərbaycan Respublikası iqtisadiyyatının sahəsi;

2.1.4. **energetika sahəsində fəaliyyət** – bu Qanunun 5.1-ci maddəsində sadalanan energetika sahəsində fəaliyyət növləri;

2.1.5. **energetika sahəsində fəaliyyətlərin ayrılması** – bu Qanunun Maddə 16-cı maddəsində nəzərdə tutulmuş təbii inhisar fəaliyyətinin rəqabətli fəaliyyətdən iqtisadi-maliyyə, idarəetmə və hüquqi cəhətdən ayrılması;

2.1.6. **energetika subyekti** – energetika sahəsində fəaliyyət növlərindən birini və ya bir neçəsini həyata keçirən hüquqi və ya fiziki şəxs;

2.1.7. **energetika şəbəkəsi** – enerjinin nəqli(ötürülməsi) və paylanması üçün nəzərdə tutulmuş energetika obyektlərinin məcmusu;

2.1.8. **enerji** – bütün növ enerji resursları, məhsulları, yanacaq növləri, bərpa olunan enerji, elektrik və istilik enerjisi və ya enerji formaları;

2.1.9. **enerji istehlakçısı** – enerjini satın alan məişət və ya qeyri-məişət istehlakçısı;

2.1.10. **inteqrasiya olunmuş energetika subyekti** – üfüqi (energetika sahəsində satış məqsədilə istehsal, ötürülmə (nəqletmə), paylanma və ya təchizat (satış) fəaliyyətinin hər hansı biri ilə yanaşı, energetika sahəsindən fərqli sahədə hər hansı fəaliyyəti həyata keçirən energetika subyekti) və ya şaquli inteqrasiya olunmuş energetika subyekti;

2.1.11. **qeyri-məişət istehlakçısı** – məişət istehlakçıları istisna olmaqla, enerjini öz ehtiyacları üçün satın alan və istifadə edən enerji istehlakçı;

2.1.12. **məişət istehlakçısı** – mənzillərdə, yaşayış evlərində, həmçinin qarajlarda öz ehtiyacları üçün (sahibkarlıq fəaliyyəti istisna olmaqla) enerjini satın alan, ondan istifadə edən fiziki şəxs;

2.1.13. **şaquli inteqrasiya olunmuş energetika subyekti** – eyni şəxsin və ya eyni şəxslərin (hüquqi şəxsin idarəetmə orqanları vasitəsilə) birbaşa və ya dolayı nəzarət hüququnun olduğu, eyni zamanda ötürülmə (nəqletmə)və ya paylanma fəaliyyətlərindən ən azı birini və istehsal və ya təchizat (satış) fəaliyyətlərindən ən azı birini həyata keçirən energetika subyekti və ya energetika subyektləri qrupu;

2.1.14. **yanacaq - enerji balansı** – enerji təhlükəsizliyinin təmin edilməsi, enerjiyə olan tələb və təklifin proqnozlaşdırılması və onun göstəricilərinin yerinə yetirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən hər bir enerji mənbəyi üzrə uçot göstəriciləri sistemi;

2.1.15. **energetika subyektlərinə tətbiq edilən xüsusi şərtlər (xüsusi şərtlər)** – sosial və iqtisadi maraqların təmin edilməsi məqsədilə bu Qanunun 18-ci maddəsinə uyğun olaraq energetika subyektlərinin üzərinə qoyulan öhdəliklər;

2.1.16. **inhisar subyekti** – energetika sahəsində fəaliyyət göstərən təbii inhisar subyekti.

2.2. Bu Qanunda istifadə olunan digər termin və anlayışlar "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Lisenziyalar və icazələr haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Təbii inhisarlar haqqında", "İnzibati icraat haqqında", "Publik hüquqi şəxslər haqqında", “Elektroenergetika haqqında”, “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında”, “Qaz təchizatı haqqında”, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları ifadə edir.

### Maddə 3. Energetika sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi

3.1. Energetika sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

3.2. Bu qanunun müddəaları ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrin müddəaları arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələrin müvafiq müddəaları tətbiq edilir.

## Fəsil 2. Energetika sahəsində fəaliyyətin əsasları

### Maddə 4. Energetika subyektlərinin fəaliyyəti

4.1. Bu Qanunda, “Elektroenergetika haqqında”, “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında”, “Qaz təchizatı haqqında”, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunlarında müəyyən edilmiş

şərtlər və məhdudiyyətlər nəzərə alınmaqla, energetika subyektləri energetika sahəsində istənilən fəaliyyət növlərini həyata keçirmək hüququna malikdir.

4.2. Energetika sahəsində "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunan fəaliyyət növləri icazələr əsasında həyata keçirilir. İcazələrin verilməsi şərtləri, icazəni verən orqan, icazələrin müddəti, icazənin alınması üçün energetika subyektinin təqdim etməli olduğu sənədlər və cavab verməli olduğu tələblər, icazələrin ləğv edilməsi şərtləri bu Qanun və "Lisenziya və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilir.

4.3. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma öz fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıda nəzərdə tutulmuş icazələrin alınması tələb olunmur.

4.4. Energetika obyektlərinin tikintisinə və istismarına dair tələblər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi, "Texniki təhlükəsizlik haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilir.

4.5. Energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda energetika sahəsində fəaliyyət energetika subyekti və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında bağlanılan müqavilə əsasında həyata keçirilir.

4.6. Energetika subyektləri arasında münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi, habelə açıq bazar prinsipi əsasında bağlanılan müqavilələr və elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində isə tənzimləyicinin qəbul etdiyi normativ xarakterli aktlara əsasən tənzimlənir.

**Maddə 5. Energetika sahəsində fəaliyyət növləri**

5.1. Energetika sahəsində fəaliyyət aşağıdakı fəaliyyət növlərini ehtiva edir:

5.1.1. enerji resurslarının kəşfiyyatı;

5.1.2. enerji resurslarının işlənməsi və hasilatı;

5.1.3. enerjinin emalı;

5.1.4. enerjinin istehsalı;

5.1.5. enerjinin saxlanılması;

5.1.6. enerjinin nəqli (ötürülməsi);

5.1.7. enerjinin idxalı və ixracı;

5.1.8. elektrik enerjisinin və təbii qazın topdan və (və ya) pərakəndə satışı;

5.1.9. təbii qaz və elektrik enerjisi bazarlarının fəaliyyətinin təşkili;

5.1.10. enerjinin paylanması;

5.1.11. istilik enerjisi təchizatı.

## Fəsil 3. Energetika sahəsində dövlət idarəetməsi, tənzimlənməsi və nəzarət

### Maddə 6. Energetika sahəsində dövlət idarəetməsinin, tənzimləmənin və nəzarətin məqsəd və vəzifələri

6.1. Energetika sahəsində dövlət idarəetməsi, tənzimlənməsi və nəzarətin məqsəd və vəzifələri aşağıdakılardır:

6.1.1. enerji təhlükəsizliyinin təmin edilməsi;

6.1.2. energetika sahəsində ictimai və sosial öhdəliklərin icrasının təmin edilməsi;

6.1.3. energetika subyektlərinin və enerji istehlakçılarının maraqları arasında balansın təmin olunması şərti ilə energetika subyektlərinin və enerji istehlakçılarının vəzifə və hüquqlarının müəyyən edilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması və inkişafı, enerji istehlakçıları hüquqlarının qorunmasının təmin edilməsi;

6.1.4. enerjidən təhlükəsiz istifadə;

6.1.5. enerjidən səmərəli istifadənin və ətraf mühitin mühafizəsinin təmin edilməsi;

6.1.6. energetika sahəsində regional əməkdaşlığın, özəl investisiyaların, davamlı iqtisadi inkişafın və enerji səmərəliliyinin təşviqi və dəstəklənməsi.

### Maddə 7. Energetika sahəsində dövlət idarəetməsi və nəzarət vasitələri

7.1. Energetika sahəsində dövlət idarəetməsi və nəzarəti aşağıdakı vasitələrlə həyata keçirilir:

7.1.1. energetika sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi, dövlət proqramlarının, fəaliyyət planlarının və strategiyaların qəbul edilməsi;

7.1.2. energetika sahəsini tənzimləyən normativ hüquqi aktların qəbul edilməsi;

7.1.3. energetika sahəsində fəaliyyətin həyata keçirilməsi üçün icazə şərtlərinin müəyyənləşdirilməsi;

7.1.4. tənzimləyicinin yaradılması və müstəqilliyinin təmin edilməsi;

7.1.5. yanacaq-enerji balansının təsdiq edilməsi;

7.1.6. energetika sahəsində qanunvericiliyin pozulması üçün məsuliyyətin müəyyən edilməsi;

7.1.7. energetika bazarının tənzimləyicinin müəyyən etdiyi qaydada monitorinqi.

**Maddə 8. Energetika sahəsində dövlət idarəetməsi və nəzarət üzrə müvafiq icra hakimiyyəti orqanının səlahiyyətləri**

8.1. Energetika sahəsində dövlət idarəetməsi və nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən həyata keçirilir.

8.2. Energetika sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətləri aşağıdakılardır:

8.2.1. energetika sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində və həyata keçirilməsində iştirak edir, bu məqsədlə müvafiq dövlət proqramlarının, fəaliyyət planlarının və strategiyaların layihələrini hazırlayır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir, həmin dövlət proqramaları, fəaliyyət planları və strategiyalarda müəyyən edilmiş qaydada icrasına nəzarəti həyata keçirir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat verir;

8.2.2. energetika sahəsini tənzimləyən qanunların layihələrinin hazırlanmasında iştirak edir, ona həvalə edilmiş məsələlər üzrə normativ hüquqi aktlar qəbul edir və onların icrasına nəzarət edir;

8.2.3. energetika sahəsində fəaliyyətin həyata keçirilməsi üçün lisenziya və icazə sisteminin tətbiq edilməsi barədə müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi orqana (quruma) təkliflər verir;

8.2.4. illik yanacaq-enerji balansını tərtib edir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir;

8.2.5. bu Qanunun 4.5-ci maddəsinə uyğun olaraq energetika sahəsində texniki təhlükəsizlik, energetika obyektlərinin yerləşdirilməsinə, layihələndirilməsinə, tikintisinə, quraşdırılmasına, istismara buraxılmasına, istismarına, istifadəçilərin və enerji istehlakçılarının qoşulmasına, enerjidən istifadəyə dair qaydaları və tələbləri müəyyən edən normativ hüquqi aktlar qəbul edir;

8.2.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə birlikdə energetika sahəsində ətraf mühitin qorunması, ətraf mühitə zərərin vurulmasının

qarşısının alınması, dəymiş zərərin aradan qaldırılması və ya azaldılması qaydalarını hazırlamaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir;

8.2.7. enerjinin energetika şəbəkələri ilə nəqlinin (ötürülməsinin) texniki tələblərini müəyyən edir;

8.2.8. energetika subyektlərinə xüsusi şərtlərin tətbiqi qaydalarını müəyyən edir;

8.2.9. enerjidən səmərəli istifadə edilməsinə, elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarəti həyata keçirir;

8.2.10. bu Qanunda, energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunvericilik ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

8.3. Energetika sahəsində fövqəladə halın elan edilməsinin əsasları və şərtlərini, fövqəladə hallar zamanı enerjinin təminatı qaydasını, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üzrə tədbirləri, habelə energetika subyektlərinin fövqəladə hallardan irəli gələn hüquq və vəzifələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 9. Tənzimləyici**

9.1. Energetika sahəsində tənzimləyici tərəfindən həyata keçirilən tənzimləmə bütün energetika subyektlərinin və enerji istehlakçılarının maraqlarının balanslaşdırılmasını və dövlət energetika siyasətinin məqsədləri ilə uzlaşdırılmasını təmin etmək, energetika sahəsinə yeni subyektlərin daxil olmasını təşviq etmək və asanlaşdırmaq, həmçinin tənzimlənən sahələrdə daxili bazarın beynəlxalq bazara inteqrasiyasını təmin etmək məqsədi ilə tətbiq edilir.

9.2. Tənzimləyicinin statusu, fəaliyyətinin hüquqi əsasları və prinsipləri, tənzimlədiyi energetika sahələri, tənzimləmə üsulları, məqsəd və vəzifələri, funksiya və səlahiyyətləri, məsuliyyəti, strukturu və işinin təşkili, fəaliyyəti ilə bağlı münasibətlər, o cümlədən digər dövlət orqanları və yerli özünüidarəetmə orqanları ilə münasibətləri qanun ilə müəyyən edilir.

**Maddə 10. Yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının energetika sahəsində fəaliyyəti**

10.1. Energetika sahəsində dövlət proqramları hazırlanarkan yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin müvafiq inzibati ərazi vahidində enerji istehlakçılarının, energetika subyektlərinin ehtiyaclarının ödənilməsinə, energetika obyektlərinin yerləşdirilməsinə dair təklifləri nəzərə alınır.

10.2. Yerli icra hakimiyyəti orqanları və bələdiyyələr müvafiq olaraq aşağıdakı səlahiyyətləri həyata keçirir:

10.2.1. müvafiq inzibati ərazi vahidi ərazisində energetika sahəsi üzrə kommunikasiya xətlərinin keçirilməsinə və kommunal xidmətlərin təşkilinə dair təkliflər hazırlayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya tənzimləyiciyə təqdim etmək;

10.2.2. müvafiq inzibati ərazi vahidi ərazisində dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarında yanacağın istismar ehtiyatlarının həcmi və nomenklaturu barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

10.2.3. müvafiq inzibati ərazi vahidi ərazisində yerləşən dövlət və ya bələdiyyə mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus müəssisələrin və digər təşkilatların mühəndis-enerji komplekslərinin, mənzil fondunun və sosial-mədəni təyinatlı obyektlərinin qış mövsümünə hazırlanması işlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada razılaşdırmaq;

10.2.4. energetika sahəsində təchizatın fasiləsizliyi və təhlükəsizliyinin təmin olunması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya tənzimləyiciyə təkliflər vermək;

10.2.5. energetika obyektlərinin yerləşdirilməsi üçün qanunvericilikdə müəyyən edilmiş qaydada torpaq sahələrini istifadəyə və icarəyə vermək.

10.3. Bələdiyyələrin yaratdıqları hüquqi şəxslər energetika sahəsində fəaliyyətlə məşğul olmaq hüququna malikdir. Bu halda həmin hüquqi şəxslər energetika subyekti hesab edilir.

## Fəsil 4. Energetika sahəsində dövlət siyasəti

### Maddə 11. Energetika sahəsində dövlət siyasətinin əsas prinsipləri

11.1. Energetika sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

11.1.1. bu Qanunun Maddə 12-ci maddəsinə uyğun olaraq energetika sahəsində fəaliyyətin açıq bazar münasibətləri və sərbəst rəqabət əsasında qurulması;

11.1.2. bu Qanunun Maddə 13-cü maddəsinə uyğun olaraq energetika sahəsində ayrı-seçkiliyin qarşısının alınması;

11.1.3. bu Qanunun Maddə 15-ci maddəsinə uyğun olaraq energetika sahəsində fəaliyyətin və tənzimlənmənin şəffaflığının təmin edilməsi;

11.1.4. bu Qanunun Maddə 16-cı və Maddə 17-ci maddələrinə uyğun olaraq energetika sahəsində fəaliyyətlərin ayrılması;

11.1.5. bu Qanunun Maddə 18-ci maddəsinə uyğun olaraq energetika sahəsində təminat üzrə xüsusi şərtlərin müəyyən edilməsi;

11.1.6. bu Qanunun Maddə 19-cu maddəsinə uyğun olaraq enerji istehlakçılarının hüquqlarının müdafiəsi;

11.1.7. bu Qanunun 5-ci fəslinə uyğun olaraq enerji təhlükəsizliyinin təmin edilməsi;

11.1.8. bu Qanunun 6-cı fəslinə uyğun olaraq energetika sahəsində dayanıqlı inkişafın təmin edilməsi.

**Maddə 12. Energetika sahəsində fəaliyyətin açıq bazar münasibətləri və sərbəst rəqabət əsasında qurulması**

12.1. Energetika sahəsində fəaliyyətin açıq bazar münasibətləri və sərbəst rəqabət əsasında qurulması aşağıdakılar vasitəsi ilə təmin edilir:

12.1.1. Təbii inhisar üçün əsaslar olmadıqda, energetika sahəsində inhisarçılığın mərhələli şəkildə aradan qaldırılması;

12.1.2. “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, energetika sahəsində göstərilən xidmət və məhsulların qiymətlərinin tələb-təklif əsasında formalaşdırılması;

12.1.3. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə energetika sahəsində nəzərdə tutulmuş fəaliyyət növlərinin icazələr əsasında həyata keçirilməsi;

12.1.4. bu Qanunda, habelə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında”, ‘’Elektroenergetika”, “Qaz təchizatı”, “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respubikası qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, energetika subyektlərinin fəaliyyətinə dövlət tərəfindən müdaxilə edilməməsi;

12.1.5. energetika subyektləri arasında münasibətlərin, habelə energetika subyektləri ilə enerji istehlakçıları arasında münasibətlərin müqavilə əsasında tənzimlənməsi;

12.1.6. enerji istehlakçılarının enerji təchizatçılarını (satıcılarını) sərbəst seçmək hüququnun təmin edilməsi;

12.1.7. energetika sahəsində inhisarçılığın yaranmasına, rəqabətin digər şəkildə məhdudlaşdırılmasına və (və ya) haqsız rəqabətə qarşı tədbirlərin görülməsi.

12.2. Energetika sahəsində aşağıdakı fəaliyyət növləri təbii inhisar hesab edilir:

12.2.1. neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli;

12.2.2. yeraltı qaz anbarlarının istismarı;

12.2.3. təbii qazın nəqli (qaz nəqli sistemi operatoru);

12.2.4. elektrik enerjisinin ötürülməsi (elektrik enerjisinin ötürücü sistem operatoru);

12.2.5. təbii qazın paylanması (qaz paylayıcı sistem operatoru);

12.2.6. elektrik enerjisinin paylanması (elektrik enerjisinin paylayıcı sistem operatoru);

12.2.7. təbii qaz bazarının fəaliyyətinin təşkili (qaz bazarı operatoru);

12.2.8. elektrik enerjisi bazarının fəaliyyətinin təşkili (elektrik enerjisi bazarı operatoru);

12.2.9. magistral boru kəmərləri vasitəsi ilə istiliyin və (və ya) isti suyun paylanması.

12.3. Energetika sahəsində təbii inhisar hesab edilən fəaliyyət növləri "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

12.4. Energetika sahəsində bazarın yaradılması və fəaliyyəti (yəni təbii inhisar hesab edilən energetika sahəsində fəaliyyət növləri istisna olmaqla, energetika sahəsində digər fəaliyyət növlərinə özəl investorların əlçatanlığının təmin edilməsi və rəqabət şəraitinin yaradılması) qanunla və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən mərhələlərə uyğun olaraq həyata keçirilir.

12.5. Təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi bütün energetika subyektlərinin bu Qanunun 13.1-ci maddəsində müəyyən edilmiş hüquqlarını təmin edilir.

12.6. Energetika sahəsində inhisarçılıq, ayrı-seçkilik, yaxud rəqabətin digər şəkildə məhdudlaşdırılması və ya haqsız rəqabət halları müəyyən edildikdə və ya bunların baş verməsi üçün şərait yarandıqda, "Təbii inhisarlar haqqında" Azərbaycan

Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunda, “Təbii inhisarlar haqqında”, “Antiinhisar fəaliyyəti haqqında”, “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının qanunlarında müəyyən edilmiş tədbirlərin həyata keçilməsi üçün antiinhisar fəaliyyəti və haqsız rəqabətin qarşısının alınması üzrə dövlət siyasətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan(qurum) ilə əməkdaşlıq edir.

**Maddə 13. Energetika sahəsində ayrı-seçkiliyin qarşısının alınması**

13.1. Hər bir energetika subyekti heç bir maneə və ya əsassız ayrı-seçkilik olmadan energetikanın müvafiq sektorunda fəaliyyət göstərən inhisar subyektlərinin mal, iş və xidmətlərinə, “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikası Qanununa əsasən müəyyən olunmuş qiymətlər (tariflər) tətbiq edilməklə və istilik enerjisi, habelə qaz təchizatı sahələrində tənzimləyici tərəfindən müəyyən edilmiş şərtlərlə çıxış əldə etmək hüququna malikdir.

13.2. İnhisar subyektləri öz mal, iş və xidmətlərinə energetika subyektlərinin çıxış hüququnu təmin etməkdən yalnız inhisarçı mövqe tutan müvafiq energetika obyektlərinin və ya energetika şəbəkələrinin həcmləri və ya gücləri çatışmadıqda imtina edə bilər.

13.3. İnhisar subyektləri energetika subyektlərinə müvafiq energetika obyektinə və ya energetika şəbəkəsinə çıxış verməmələrini əsaslandırmalıdırlar. Həmin əsaslandırma obyektiv texniki və iqtisadi meyarları nəzərdə tutmalıdır. Energetika obyektinə və ya energetika şəbəkəsinə çıxış hüququndan imtina üçün obyektiv texniki və iqtisadi meyarlar tənimləyici tərəfindən müəyyən edilir. Çıxış hüququnun həyata keçirilməsindən imtina almış energetika subyekti imtinanın əsaslı olub-olmamasını müəyyən etmək məqsədilə mübahisənin predmeti tənzimləyicinin səlahiyyətlərinə aid olduqda tənzimləyiciyə, əks halda isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etmək hüququna malikdir. Tənzimləyici imtinanın əsassız olduğunu müəyyən etdikdə, onun tələbi ilə energetika sahəsində fəaliyyət göstərən inhisar subyekti energetika subyektinə çıxış hüququnu təmin edir.

**Maddə 14. Energetika sahəsində qiymətlərin (tariflərin) formalaşdırılması**

14.1. İnhisar subyektlərinin məhsul, iş və xidmətləri üzrə qiymətlər (tariflər), habelə təbii qazın, elektrik enerjisinin və istilik enerjisinin satış qiymətləri (tarifləri) “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.

14.2. Tənzimlənən qiymətlər (tariflər) müəyyən edilərkən müvafiq məhsul, iş və ya xidmətin maya dəyərinin ödənilməsi, müvafiq məhsul, iş və xidmətləri təhciz edən energetika subyektlərinin gəlir əldə etməsi, energetika obyektlərinin saxlanılması, yenilənməsi, bərpası xərclərinin ödənilməsi və enerji istehlakçılarının maraqlarının qorunması zərurəti nəzərə alınır.

14.3. Energetikanın bütün digər rəqabətli sahələrində enerjinin və xidmətlərin qiymətləri (tarifləri) energetika subyektləri tərəfindən sərbəst olaraq razılaşdırılan müqavilələrə əsasən müəyyən edilir. Tənzimləyici açıq bazarda formalaşan qiymətləri (tarifləri) monitorinq edir və qiymətlərlə manipulyasiya halları baş verdikdə müvafiq bazarı tənzimləyən normativ hüquqi aktlarda müəyyən edilmiş tədbirləri həyata keçirir.

**Maddə 15. Energetika sahəsində fəaliyyətin və tənzimlənmənin şəffaflığının təmin edilməsi**

15.1. İnhisar subyektləri malların (işlərin,xidmətlərin) alqı-satqısına dair bağladığı müqavilələr və qiymətlərə (tariflərə) dair məlumatları bu Qanunun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələbləri nəzərə alınmaqla, özlərinin rəsmi internet səhifələrində dərc edir və tənzimləyiciyə təqdim edirlər.

15.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və tənzimləyici “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda, “İctimai iştirakçılıq haqqında”, “Lisenziyalar və icazələr haqqında”, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan qaydada bu Qanunun və energetika sahəsini tənzimləyən digər qanunvericiliyin tətbiq edildiyi məsələlərə aid olan bütün hüquqi akt layihələri rəsmi internet səhifələrində açıqlayır və maraqlı tərəflərin iştirakı ilə ictimai müzakirələr təşkil edir.

15.3. Energetika subyektləri barədə habelə onların malları, işləri və xidmətləri haqqında məlumatlar, tənzimləyicinin və həmin xidmətləri göstərən energetika subyektlərinin rəsmi internet səhifələrində yerləşdirilir.

**Maddə 16. Energetika sahəsində fəaliyyətlərin ayrılması**

16.1. Enerjinin nəqlini (ötürülməsini) və ya paylanmasını həyata keçirən energetika subyektləri tərəfindən rəqabəti məhdudlaşdıran üstünlüklərin əldə edilməsi və maraqların toqquşması hallarının qarşısının alınması, inhisar subyektləri arasında, habelə bu subyektlərlə digər təsərrüfat subyektləri arasında çarpaz subsidiyalaşmanın qarşısını almaq məqsədi ilə bu maddədə müəyyən edilmiş formalarda energetika sahəsində fəaliyyətlərin ayrılması üzrə tədbirlər həyata keçirilir.

16.2. Enerjinin ötürücü və ya nəqletmə şəbəkəsinə malik olan hər bir energetika subyekti müvafiq olaraq ötürücü və ya nəqletmə sistem operatoru fəaliyyətini həyata keçirir. Hər bir sistem operatorunun vəzifə, funksiya və səlahiyyətləri müvafiq qanunvericilik və ya normativ xarakterli aktlarla müəyyən edilir.

16.3. Energetika sahəsində eyni şəxs və ya şəxslər tərəfindən “Elektroenergetika haqqında” və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq fəaliyyətlərin eyni zamanda həyata keçirilməsinə dair məhdudiyyət müəyyən oluna bilər.

16.4. Bu Qanunun 16-cı maddəsində müəyyən edilmiş energetika sahəsində fəaliyyətlərin ayrılmasına dair tələblər, həmçinin energetika subyektləri tərəfindən həmin tələblərə riayət olunmasının monitorinqi qaydaları tənzimləyici tərəfindən müəyyən edilir.

**Maddə 17. Hesabların ayrılması**

17.1. Hesabların ayrılmasının əsas məqsədi ayrı-seçkiliyin, haqsız rəqabətin və çarpaz subsidiyalaşma hallarının qarşısının alınmasıdır.

17.2. Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün energetika subyektləri illik mühasibat və digər hesabatlarını Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına uyğun hazırlayır və bunların hər il müstəqil auditor tərəfindən yoxlanılmasını və dərc edilməsini təmin edirlər. Müstəqil auditor çarpaz subsidiyalaşma hallarının baş vermədiyini təsdiq edir.

17.3. İnteqrasiya olunmuş energetika subyektləri:

17.3.1. paylanma və ötürülmə (nəqletmə) fəaliyyətləri üzrə mühasibat uçotunu, maliyyə və digər hesabatlarını ayrıca aparırlar;

17.3.2. paylanma və ötürülmə (nəqletmə) fəaliyyəti ilə bağlı olmayan elektrik enerjisi sahəsində və ya qaz sahəsində digər fəaliyyətlərin hesabatlarını (tələb olunduqda konsolidə edilmiş formada) paylayıcı və ötürücü (nəqletmə) fəaliyyətlərindən ayrıca aparırlar;

17.3.3. elektrik enerjisi sahəsi və ya qaz sahəsi ilə bağlı olmayan fəaliyyətlərin hesabatlarını (tələb olunduqda konsolidə edilmiş formada) paylanma və ötürülmə (nəqletmə) fəaliyyətlərindən ayrıca aparırlar;

17.3.4. elektrik enerjisinin ötürücü, elektrik enerjisinin paylayıcı, qazın nəqli və qaz paylayıcı şəbəkələrinə sahibliklə bağlı gəlirləri barədə hesabatları tənzimləyiciyə təqdim edir və hər bir fəaliyyət üzrə ayrıca balansı, eləcə də gəlir və zərər hesabatını hazırlayırlar.

**Maddə 18. Enerji təminatında xüsusi şərtlərin müəyyən edilməsi**

18.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) şəffaf və ayrı-seçkiliyə yol verilmədən energetika sahəsində müəyyən olunmuş fəaliyyətlərin həyata keçirilməsi üçün energetika subyektlərinə xüsusi şərtlər, hüquqlar və güzəştlər tətbiq edə bilər. Bu Qanunun 18.2-ci maddəsində müəyyən olunmuş sahələrdə fəaliyyət üçün xüsusi şərtlərin tətbiqi və icrası üçün onların tətbiq edildiyi energetika subyektlərinə verilən hüquqlar və güzəştlər nəzərdə tutulmuş məqsədlərə mütənasib olaraq və energetika sahəsində rəqabəti məhdudlaşdırmadan müəyyən edilir.

18.2. Ümumdövlət sosial və iqtisadi maraqlardan irəli gələrək dövlət energetika subyektləri üçün aşağıdakı sahələrdə xüsusi şərtlər müəyyən edə bilər:
18.2.1. enerji təchizatının təhlükəsizliyi və fasiləsizliyi,
18.2.2. enerjinin keyfiyyəti və əlçatan qiymətlərlə satışı,
18.2.3. iqtisadi və sosial maraqların uzlaşması;
18.2.4. enerji səmərəliliyi;
18.2.5. bərpa olunan enerji mənbələrindən istifadə;
18.2.6. ətraf mühitin mühafizəsi.

18.3. Xüsusi şərtlərin tətbiqi üçün aşağıdakılar müəyyən edilir:

18.3.1. xüsusi şərtlərin tətbiq edildiyi energetika subyektləri;
18.3.2. xüsusi şərtlərin məzmunu (qoyulan öhdəliklər) və həcmi;
18.3.3. xüsusi şərtlər tətbiq edilən enerji istehlakçılarının əhatəsi və onların müəyyən edilməsi meyarları;
18.3.4. xüsusi şərtlərin tətbiq sahəsi və qüvvədə olma müddəti;
18.3.5. xüsusi şərtlər tətbiq edilən energetika subyektlərinə verilən hüquqlar və güzəştlər.

**Maddə 19. Enerji istehlakçıları**

19.1. Enerji istehlakçısı ilə enerji təchizatçılarının qarşılıqlı hüquq və öhdəlikləri bu Qanun, energetika sahəsinin müvafiq sektorunu tənzimləyən qanunvericiliyin müddəaları nəzərə alınmaqla qeyri-bərabər şərt təklif etmədən enerji istehlakçısı ilə enerji təchizatçısı arasında bağlanılan müqavilə ilə tənzimlənir. Xüsusi şərtlər tətbiq edilidiyi halda enerji istehlakçıları və enerji təhcizatçıları arasında bağlanılan müqavilələrdə həmin xüsusi şərtlər göstərilir.

19.2. Energetika subyekti qanunvericilikdə nəzərdə tutulmuş əsaslar olmadan enerji istehlakçısı ilə müqavilə bağlanmasından imtina edə, müqavilənin icrasını dayandıra və ya onu ləğv edə, həmçinin qanunvericilikdə nəzərdə tutulmamış və

ya qeyri-adi şərtləri, tələbləri və öhdəlikləri enerji istehlakçısının üzərinə qoya bilməz.

19.3. Enerji istehlakçısı enerji təchizatçısı ilə bağladığı müqaviləyə əməl etmək şərtilə, istənilən vaxt enerji təchizatçısını dəyişmək hüququna malikdir.

19.4. Enerji istehlakçıları istehlak edilən enerjinin sərfiyyatını sayğacların göstəriciləri əsasında ödəyirlər. Məişət istehlakçıları üçün sayğaclar paylayıcı sistem operatorunun vəsaiti hesabına, qeyri-məişət istehlakçıları üçün isə qeyri-məişət istehlakçısının öz vəsaiti hesabına paylayıcı sistem operatoru tərəfindən təchiz edilir, quraşdırılır və dəyişdirilir.

19.5. Enerji istehlakçısı istehlak etdiyi qaz və elektrik enerjisinə dair ətraflı məlumat almaq hüququna malikdir. Enerji təchizatçısı tərəfindən enerji istehlakçısına təqdim edilməli olan məlumatın məzmunu elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində tənzimləyici, digər energetika sahələrində isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

19.6. Enerji istehlakçılarının istifadə etdiyi avadanlıq və cihazlar qanunvericilik ilə müəyyən edilən qaydada sertifikatlaşdırılır və texniki reqlamentlərə uyğun olur.

19.7. Enerji istehlakçılarının istifadə etdiyi avadanlıq və cihazlarda, həmçinin enerji təchizatçısı tərəfindən enerji istehlakçısına göstərilən xidmətlərdə qüsurların enerji istehlakçısının təqsirindən əmələ gəldiyi sübut olunmazsa, enerji istehlakçısı buna görə məsuliyyət daşımır.

19.8. Energetika sahəsində xidmət göstərərkən istifadə etdiyi materialların, avadanlıqların, cihazların və başqa vasitələrin tətbiqi nəticəsində enerji istehlakçısının həyatına, sağlamlığına və ya əmlakına zərər dəyərsə, energetika subyektləri (təqsirli şəxslər) göstərilən xidməti, yaxud istifadə etdiyi avadanlıq və vasitələrin xassələrini bilib-bilmədiyindən asılı olmayaraq məsuliyyət daşıyırlar.

## Fəsil 5. Enerji təhlükəsizliyi

### Maddə 20. Ölkənin enerji müstəqilliyi

20.1. Enerji təhlükəsizliyi ölkənin enerji müstəqilliyinin təmin edilməsi vasitəsilə həyata keçirilir. Ölkənin enerji müstəqilliyi bütün enerji istehlakçılarının əsasən ölkə daxilində istehsal olunan enerji ilə etibarlı təchiz olunmasını ehtiva edir.

20.2. Enerji təhlükəsizliyi aşağıdakı vasitələrlə təmin edilir:

20.2.1. enerji mənbəyi olan təbii ehtiyat yataqlarının işlənilməsi və hasilatının, enerji istehsalının, idxalı və ixracı üzrə öhdəliklərin ölkənin perspektiv inkişaf planları ilə proqnozlaşdırılan enerji tələbatı ilə uzlaşdırılması;

20.2.2. bərpa olunan enerji mənbələri hesabına enerji istehsalının genişləndirilməsi;

20.2.3. enerji ehtiyatlarının yaradılması və enerji təhlükəsizliyini təmin etmək üçün tələb olunan səviyyədə saxlanılması;

20.2.4. hərbi vəziyyətdə və fövqəladə hallarda enerjinin fasiləsiz təchiz edilməsi məqsədilə müvafiq tədbirlər planlarının hazırlanması və həyata keçirilməsi, enerji ilə prioritet qaydada təchiz edilməli olan dövlət əhəmiyyətli və sosial obyektlərin fasiləsiz təminatı üçün tədbirlərin görülməsi;

20.2.5. zəruri hallarda enerjinin digər ölkələrdən idxalı imkanlarının təmin edilməsi;

20.2.6. enerjidən istifadənin səmərəliliyinin artırılması.

20.3. Enerji ilə təminatı prioritet olan dövlət əhəmiyyətli və sosial obyektlərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

20.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ölkədə müxtəlif enerji və yanacaq növlərinə tələbata, eləcə də enerji istehsalına dair qısamüddətli və uzunmüddətli proqnozlara əsaslanan yanacaq-enerji balansına uyğun olaraq həmin proqnozlar əsasında enerji müstəqilliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görür.

**Maddə 21. Yanacaq-enerji balansı**

21.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) yanacaq-enerji balansının hazırlanması və təsdiq edilməsi qaydasını müəyyən edir.

21.2. Yanacaq-enerji balansı cari dövrdə energetika subyektlərindən alınan məlumatlar (enerjinin istehsalı həcmləri, enerjinin təchizatı üzrə öhdəliklər), enerjinin istehlakına dair məlumatlar əsasında tərtib edilir. Yanacaq-enerji balansı enerjinin istehsal planlarına və təchizatına dair öhdəliklərə, həmçinin ölkə iqtisadiyyatının perspektiv inkişaf planlarına əsasən gələcək dövrlər üçün proqnoz məlumatlarına əsaslanır.

**Maddə 22. Energetika sahəsində təhlükəsizlik**

22.1. Energetika sahəsində fəaliyyət, o cümlədən energetika obyektlərinin layihələndirilmə, tikinti və quraşdırma işləri və istismarı bu Qanunun 4.5-ci maddəsinə uyğun olaraq texniki təhlükəsizlik qaydaları çərçivəsində və əhalinin sağlamlığına mənfi təsirə yol verilmədən həyata keçirilir.

22.2. Enerji ilə təminatı prioritet olan dövlət əhəmiyyətli və sosial obyektlərin təhlükəsizliyi üçün tədbirlər, o cümlədən onların fəaliyyətinin hər hansı kənar

müdaxilələrdən (o cümlədən, kiberhücumlardan) qorunması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

22.3. Energetika obyektləri qanunvericilik ilə müəyyən edilmiş qaydada sertifikatlaşdırılır.

## Fəsil 6. Energetika sahəsində dayanıqlı inkişaf

### Maddə 23. Energetika sahəsində dayanıqlı inkişafın təmin edilməsi

23.1. Energetika sahəsində dayanıqlı inkişafın təmin edilməsi üçün dövlət aşağıdakı tədbirləri görür:

23.1.1. energetika sahəsində rəqabətin inkişafı, dövlət inhisarçılığının tədricən aradan qaldırılması, enerji təhlükəsizliyi üzrə tələblər nəzərə alınmaqla energetika sahəsinin dövlətsizləşdirilməsi, təbii inhisarların aradan qaldırılması üçün təşviq xarakterli tədbirlərin görülməsi;

23.1.2. enerji mənbəyi olan təbii ehtiyat yataqlarının işlənməsi və enerjinin hasilatı, emalı və istehsalı üzrə fəaliyyətin, enerjidən istifadənin ekoloji tarazlığın pozulmasına yol verilmədən təmin edilməsi;

23.1.3. energetika sahəsinin inkişaf planlarının, energetika obyektlərinin yerləşdirilməsinin ölkə iqtisadiyyatının mövcud ehtiyacları, perspektiv inkişaf planları, əhalinin proqnozlaşdırılan artım səviyyəsi və yaşayış məkanlarının perspektiv inkişaf planları ilə uzlaşdırılması;

23.1.4. energetika sahəsinin inkişafının dövlət proqramları əsasında həyata keçirilməsi;

23.1.5. energetika obyektlərinin və enerji istehlakının bütün növlərində səmərəliliyin artırılması və itkilərin azaldılması;

23.1.6. bərpa olunan enerji mənbələri hesabına enerji istehsalının mümkün xərclər və ötürücü şəbəkənin etibarlılığının imkan verdiyi hədd çərçivəsində artırılmasının təşviq edilməsi;

23.1.7. energetika sahəsinə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi.

### Maddə 24. Energetika sahəsində dövlət proqramları

24.1. Energetika sahəsinin dayanıqlı inkişafı üzrə bu Qanunun 23.1-ci maddəsində müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qısamüddətli (5 il müddətinə), orta müddətli (5 ildən 10 ilə qədər müddətinə) və uzun müddətli dövlət

energetika strategiyalarının və proqramlarının layihələrini “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”na uyğun olaraq hazırlayır və təsdiq üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

24.2. Energetika sahəsində dövlət proqramlarının, fəaliyyət planlarının və strategiyaların “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq strateji ekoloji qiymətləndirilməsi aparılır.

**Maddə 25. Ətraf mühitin mühafizəsi və ətraf mühitə zərərin vurulmasının qarşısının alınması**

25.1. Energetika sahəsində fəaliyyət “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə və texniki reqlamentlərə uyğun olaraq, ekoloji tarazlığın qorunması ilə həyata keçirilir. Energetika sahəsində fəaliyyət növlərinin həyata keçirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi qaydaları “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

25.2. Dövlət enerjinin bərpa olunan enerji mənbələrindən əldə edilməsini təşviq edir və bu sahənin inkişafı üçün əlverişli şəraitin yaradılmasını təmin edir. Bərpa olunan enerji sahəsində fəaliyyətin xüsusiyyətləri və bu sahədə dövlətin energetika subyektlərinə tətbiq etdiyi xüsusi şərtlər qanunla müəyyən olunur.

25.3. Ətraf mühitin energetika subyektləri və enerji istehlakçıları tərəfindən qanunvericilik ilə müəyyən edilmiş normadan artıq çirklənməsinə yol verilmir. Energetika subyektləri ətraf mühitə atılan istixana qazı emissiyalarının miqdarının azaldılması, torpaqların və su hövzələrinin neftlə və neft məhsulları ilə çirklənməsinin qarşısının alınması, eləcə də ətraf mühitə zərər vuran digər tullantıların təsirinin azaldılması üçün tədbirlər görürlər.

25.4. Enerji mənbəyi olan təbii ehtiyat yataqlarının kəşfiyyatı, işlənməsi, hasilatı, enerjinin istehsalı və emalı, nəqli, ötürülməsi və paylanması fəaliyyətini həyata keçirən energetika subyektləri təbii fəlakət, qəza, fövqəladə hallar zamanı ətraf mühitə mənfi təsirin azaldılması və qarşısının alınması üçün müvafiq planlar hazırlayır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) razılaşdırmaq üçün təqdim edir, həmçinin belə hallar baş verdikdə həmin planda nəzərdə tutulmuş tədbirləri dərhal həyata keçirirlər.

**Maddə 26. Ətraf mühitə və üçüncü şəxslərə vurulmuş zərərin aradan qaldırılması**

26.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hallar nəzərdə tutulmadıqda, energetika subyektinin təqsiri üzündən ətraf mühitə dəymiş zərər həmin zərəri vuran energetika subyekti tərəfindən tam olaraq aradan qaldırılır və ya ətraf mühitə dəymiş zərərin əvəzi tam olaraq ödənilir.

26.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hallar nəzərdə tutulmadıqda, energetika subyektinin təqsiri üzündən üçüncü şəxslərin həyat və sağlamlığına və əmlakına dəymiş zərər həmin zərəri vuran energetika subyekti tərəfindən ödənilir. Zərərin əvəzi Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş həcmdə və qaydada ödənilir.

26.3. Energetika obyektlərinin istismarı, o cümlədən müvafiq sahədə inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparılması ilə bağlı üçüncü şəxslərə vurulan zərərə görə mülki məsuliyyətinin sığortalanması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq icbari qaydada həyata keçirilir.

**Maddə 27. Enerji səmərəliliyi**

27.1. Enerji təminatının dayanıqlılığına nail olmaq üçün “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan enerji səmərəliliyi tədbirləri həyata keçirilir. Enerji səmərəliliyi tədbirləri enerjiyə qənaət, enerjidən səmərəli istifadə olunması, enerji istehlakının azaldılmasına xidmət edən yeni texnologiyaların, idarəetmə sistemlərinin və digər innovasiyaların cəlb edilməsinə nail olmaq üçün həyata keçirilən kompleks tədbirləri əhatə edir. Enerjidən səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin istiqamətləri “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

27.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji səmərəliliyinin artırılması üçün energetika subyektləri və iqtisadiyyatın bütün sahələrindən olan qeyri-məişət istehlakçıları üçün enerjinin istehlakını azaltmağa dair hədəflər müəyyən edə bilər. Dövlət büdcəsindən maliyyələşdirilən qeyri-məişət istehlakçılarının istifadə etdiyi elektrik enerjisinin, istilik enerjisinin və təbii qazın limitləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 28. Bərpa olunan enerji mənbələrindən istifadə**

28.1. Dövlət bərpa olunan enerji mənbələri hesabına enerji istehsalının genişləndirilməsi məqsədilə əlverişli şəraitin yaradılması üçün kompleks təşviq

tədbirlərini həyata keçirir. Belə təşviq tədbirlərinə vergi və gömrük rüsumlarından azad olmaların və ya güzəştlərin təqdim edilməsi, bərpa olunan enerji mənbələri hesabına istehsal edilən elektrik enerjisinin satın alınmasına dair zəmanətlərin verilməsi, bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisini istehsal edən energetika subyetklərinə energetika şəbəkələrinə üstün çıxışın verilməsi və sair tədbirlər aid edilə bilər. Bərpa olunan enerji mənbələri hesabına enerji istehsalının genişləndirilməsi tədbirləri enerjinin saxlanılması texnologiyalarının tətbiqini, bu sahədə energetika obyektlərinin qurulmasını və istismarını nəzərdə tuta bilər.

28.2. Bərpa olunan enerji mənbələri hesabına enerjinin istehsalı və istifadəsi bu Qanunun 24-cü maddəsinə uyğun olaraq uzun müddətli plan və proqramlar əsasında həyata keçirilir. Belə uzun müddətli plan və proqramların məqsədi ənənəvi enerji resursları hesabına enerji istehsalı ilə müqayisədə bərpa olunan enerji mənbələri hesabına enerji istehsalının mümkün xərclər və texniki imkanların icazə verdiyi hədd çərçivəsində genişləndirilməsidir.

**Maddə 29. Energetika sahəsində özəl investisiyaların təşviq edilməsi**

29.1. Dövlət energetika sahəsində Azərbaycan Respublikasının və xarici ölkələrin fiziki və hüquqi şəxsləri tərəfindən özəl investisiyaları təşviq etmək üçün bu Qanunun 24-cü maddəsinə uyğun olaraq stimullaşdırıcı proqramlar qəbul edə bilər.

29.2. Energetika sahəsində özəl investisiyalar Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyanın qorunması haqqında" qanunlarına əsasən qorunur.

**Maddə 30. Energetika sahəsində beynəlxalq əməkdaşlıq**

30.1. Energetika sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında, dövlət energetika siyasətinin prinsipləri rəhbər tutmaqla həyata keçirilir.

30.2. Dövlətin regional və qlobal enerji layihələrində iştirakı enerji təhlükəsizliyinin prioritetliyi nəzərə alınmaqla həyata keçirilir.

## Fəsil 7. Yekun müddəalar

**Maddə 31. Qanunun pozulmasına görə məsuliyyət**

31.1. Bu Qanunun tələblərini pozan fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

**Maddə 32. Qanunun qüvvəyə minməsi**

32.1. Bu Qanun qüvvəyə mindiyi gündən "Energetika haqqında" Azərbaycan Respublikasının 24 noyabr 1998-ci il tarixli 541-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006, № 8, maddə 657; 2018, № 3, maddə 378; 2019, № 11, maddə 1689 ) ləğv edilir.